**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**VENERA CAVAD QIZI MƏMMƏDOVA**

# AZƏRBAYCAN FORTEPİANO SƏNƏTİNİN İNKİŞAFINDA SİMUZƏR QULİYEVANIN ROLU

6213.01-Musiqi sənəti

sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

BAKI – 2013

İş Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının «Musiqi tarixi» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor **Gülnaz Abutalıb qızı Abdullazadə**

**Rəsmi opponentlər:** sənətşünaslıq doktoru, professor **Sevda Firudin qızı Qurbanəliyeva**

sənətşünaslıq namizədi, professor **Zemfira Kəlpəli qızı Abdullayeva**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Mədəniyyət və incəsənət Universiteti

Müdafiə «10___» aprel 2013-cü ildə saat__$12^{00}$___ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat mart ayının________2013-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
sənətşünaslıq namizədi, professor: **Ş.H. HƏSƏNOVA**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan fortepiano incəsənəti qısa bir tarixi dövr ərzində müasir bədii yaradıcılıq yüksəkliyinə nail olaraq inkişaf yolu keçmişdir. Fortepiano musiqisindəki irəliləyişlər ifaçılıq incəsənətindəki nailiyyətlərlə, Azərbaycan pianoçuları – müəllim və ifaçıların əvəzsiz xidmətləri ilə sıx bağlıdır. Onların hər birinin milli ifaçılıq sənətində rolunu müəyyən etmək və qiymətləndirmək olduqca aktualdır.

Təqdim olunmuş dissertasiya Azərbaycan fortepiano təhsili və ifaçılığında misilsiz xidmətləri olan Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, professor Simuzər Ələkbər qızı Quliyevanın milli fortepiano sənətinin inkişafında rolunun tədqiqinə həsr olunur. Qeyd etmək lazımdır ki, S.Quliyeva musiqi aləmində Fəridə adı ilə tanınmışdır.

A.B.Qoldenveyzerin klassik ənənələrinin parlaq davamçısı olan S.Quliyevanın ifaçılıq və pedaqoji fəaliyyətinin elmi tədqiqat obyektinə çevrilməsi prosesini izləmək həm tarixi, həm də nəzəri baxımdan böyük elmi maraq doğurur və milli pianoçuluq məktəbinin mərhələli inkişafında onun yerini müəyyən edir.

S.Quliyevanın fortepiano ifaçısı kimi Azərbaycanda ilk dəfə namizədlik dissertasiyası gələcək nəsil ifaçılar üçün yaradıcılığının elmi tərəfdən tədqiqi baxımından bir örnək oldu. Onun yaradıcılıq yolunun, əsas ifaçılıq cəhətlərinin, pedaqoji prinsiplərinin, dərs metodikasının, ümumiyyətlə bu sahədə əldə etdiyi bütün nailiyyətlərinin dərin səpkidə araşdırılması, dəqiq təyinatların verilməsi Azərbaycan fortepiano sənətinin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Dissertasiyanın aktuallığını müəyyənləşdirən digər cəhət də odur ki, S.Quliyevanın bir çox nüfuzlu müsabiqələrdə, dekadalarda, Azərbaycan bəstəkarlarının I qurultayının konsertlərində iştirakı və münsiflər tərəfindən yüksək qiymətləndirilməsi geniş şəkildə öyrənilir. O, bir sıra Azərbaycan bəstəkarlarının fortepiano üçün yazılmış əsərlərinin ilk ifaçısı və təbliğatçılarından olmuş, öz yaradıcı – musiqi fəaliyyəti ilə milli fortepiano mədəniyyətinin inkişafına və çiçəklənməsinə əsaslı təkan vermişdir.

Çoxsaylı konsertlərin afişaları və resenziyalar, musiqi incəsənətinin görkəmli nümayəndələrinin rəyləri, onun tərəfindən yüksəkixtisaslı böyük pianoçu nəslinin ərsəyə gətirilməsi və hal-hazırda onların ölkəmizdə və onun hüdudlarından kənarda geniş fəaliyyəti-bütün bunlar şübhəsiz S. Quliyevanın məhsuldar yaradıcılığının parlaq nəticəsidir.

Tədqiq edilən mövzunun aktuallığı ondan ibarətdir ki, bu günə kimi S.Quliyevanın yaradıcılıq yolu, ictimai xadim kimi fəaliyyəti ilə bağlı xüsusi, müstəqil bir problem qarşıya qoyulmayıb. Onun pianoçu-pedaqoq yaradıcılığı, respublikanın musiqi təhsilindəki xidmətləri, təşkilatçılıq töhfələri, elmi-pedaqoji nəzəriyyəsi və təcrübəsi haqqında yalnız ayrı-ayrı publisistik məqalələr dərc olunmuş, çoxşaxəli yaradıcılığı epizodik şəkildə işıqlandırılmışdır. Məhz bu möqteyi nəzərdən S.Quliyevanın yaradıcılığının müasir elmi-nəzəri tələblər səviyyəsində araşdırılmasına xüsusi ehtiyac duyulur. Buna əsaslanaraq tədqiqat işi Azərbaycanın musiqi biliyi, ifaçılığı tarixində və nəzəriyyəsində ilk dəfədir ki, aparılır.

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycan fortepiano məktəbinin banilərindən M.R.Brener, G.G.Şaroyev, K.K.Səfər-Əliyevanın pedaqoji təcrübəsi fortepiano ifaçılığının inkişafında böyük rol oynamışdır. Onların istedadlı davamçıları: R.İ.Atakişiyev, N.İ.Usubova, S.Ə.Quliyeva, Z.Ə.Adıgözəlzadə, F.Ş.Bədəlbəyli, O.H.Abasquliyev, T.M.Seyidov, E.Y.Səfərova və bir çox başqalarının fortepiano incəsənətinin tədrisinə dair dəyərli metodik göstərişləri müasir fortepiano ifaçılığı və pedaqoji təcrübəsində öz əksini tapmışdır.

Hazırkı dövrdə fortepiano ifaçılığı tarixi, nəzəriyyəsi və tədrisi sahəsində alimlərimizin apardığı tədqiqatlar milli musiqi ifaçılığı sənətinin inkişafına dəyərli töhfələrini vermişdir: T.M.Seyidov[1], O.H.Abasquliyev[2], F.Z.Xəlilova[3], L.S.Rzayeva[4], A.H.Mayılova[5], L.H.Abasquliyeva[6], X.N.Rzayeva[7], K.H. Hüseynova[8] və s.

---

[1] Сеидов Т.М. Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество. Баку: Азерб. Гос. Изд, 2006.

[2] Abasquliyev O.H. Kəngərlinskaya T.F. Fortepiano metodikasından mühazirə kursu. Bakı: TS, 2001.

[3] Халилова Ф.З. Очерки истории азербайджанской фортепианной культуры. Автореф. дис. на соиск. канд. искусст. Баку, 1969.

[4] Рзаева Л.С. Современная фортепианная музыка Азербайджана. Автореф. дис. на соиск. канд. искусст. Баку, 2005.

[5] Маилова А.Г.Становление и развитие музыкально – исполнительского творчества К.К.Сафаралиевой. Баку: Адыльоглы, 2003.

[6] Абаскулиева Л.Г. Основные тенденции формирования и развития азербайджанской профессиональной фортепианной культуры. Автореф. дис. на соиск. канд. искусст. Баку, 2005.

[7] Рзаева Х.Н. Проблема авторского текста в исполнительской практике современных азербайджанских пианистов. Автореф. дис. на соиск. канд. искусст. Баку, 2007.

[8] Hüseynova K.H. Musiqimizin Fərhadı. Bakı: Adiloğlu, 2008.

Milli fortepiano incəsənətinin parlaq nümayəndələrindən biri olan S. Quliyevanın yaradıcılığı və ifaçılıq üslubu bir sıra nəşrlərdə, məqalələrdən ibarət oçerklərdə, xatirələrdə, qəzet materiallarında, yubileylə bağlı çıxışlarda öz əksini tapmışdır: T.M.Seyidovun "Azərbaycan fortepiano mədəniyyətinin görkəmli nümayəndələri" adlı oçerklər kitabında R.T.Quliyevin "Fəridə Ələkbər qızı Quliyeva" adlı məqaləsində[1] "XX əsrin Azərbaycan fortepiano mədəniyyəti"[2] adlı monoqrafiyasında S. Quliyeva yaradıcılığı ümumi tarixi konteksdə təhlil edilir.

Beləliklə, məqalə və kitablarda musiqi mədəniyyətində müstəsna xidmətləri olan bu böyük şəxsiyyətin bütövlükdə yaradıcılıq fəaliyyəti geniş, sistemli, dissertasiya şəklində araşdırılmamışdır. Tədqiqat işində müxtəlif musiqi xadimləri ilə müsahibələr və resenziyalar dəyərli material olaraq işıqlandırılmışdır.

**Tədqiqat işinin elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan fortepiano incəsənətinin nəzəriyyə və təcrübəsində ilk dəfə olaraq S.Quliyevanın fortepiano sənətinə gətirdiyi yeniliklər, ifaçılığın elmi sahə kimi qiymətləndirilməsi kompleks şəklində, sistematik mərhələlərlə elmi-nəzəri səviyyədə öyrənilir. Məhz bu səbəbdən də yüksək erudisiyaya malik Azərbaycan pianoçusunun ifaçılıq, elmi, pedaqoji fəaliyyəti böyük tarixi əhəmiyyət kəsb etdiyi üçün tədqiqat işində müxtəlif nöqteyi-nəzərdən yaradıcılıq uzlaşması izlənilir.

- İfaçılıq xüsusiyyətlərinin təfsiri, ifa olunan əsərlərin şərhi bir metod kimi istifadə olunub.
- Azərbaycan pedaqoq – pianoçularının fortepiano ifaçılığı sənəti və fortepiano tədrisinin metodika sahəsində tədqiqat işləri;
- Dünya musiqi ifaçılığı incəsənəti sahəsinə dair elmi tədqiqat əsərləri;
- İfaçılıq və pedaqoji təcrübə sahəsində dərc olunmuş məlumatlar;
- Milli və xarici fortepiano pedaqoqikasının tarixi, nəzəriyyəsi və təcrübəsinə dair elmi işləri;
- Söhbət, anketləşmə yolu ilə təhlil metodu.

Belə ki, pianoçunun ifaçılıq və pedaqoji fəaliyyətinin başlıca prinsipləri və metodlarının mahiyyəti təhlil olunur. Onun pianoçu-ifaçıların

---

[1] Кулиев Р. «Фарида Алекперовна Кулиева» Видные деятели фортепианной культуры азербайджана / Сост.Т.М. Сеидов, Баку: Ишыг, 1988, с 103-115.
[2] Сеидов Т.М. Азербайджанская фортепианная культура XX века: педагогика, исполнительство и композиторское творчество. Баку: Азерб.Гос.изд, 2006, с73-75.

peşəkar hazırlığında rolu elmi cəhətdən əsaslandırılır və milli fortepiano incəsənətinin tədrisində S. Quliyeva məktəbinin yeri təyin olunur.

**Dissertasiyanın məqsəd və vəzifələri** – S. Quliyevanın yaradıcılıq yolunu hərtərəfli öyrənmək, özünəməxsus, orijinal xüsusiyyətlərini, dəstxəttini aşkarlamaq, eyni zamanda Azərbaycan ifaçılığı sənətində tutduğu mövqeyini və müasir Azərbaycan pianoçu nəslinin formalaşmasında rolunu müəyyənləşdirməkdir.

Bu məqsədlə aşağıdakı vəzifələr qarşıya qoyulur:

- S. Quliyevanın həyat və yaradıcılığının əsas inkişaf mərhələlərinin araşdırılması;
- Pianoçunun ifaçılıq və pedaqoji prinsiplərinin, interpretasiya və təfsir metodikasının tədqiqi;
- Elmi-metodik fəaliyyətinin təhlili;
- S.Quliyeva fortepiano məktəbinin yaradıcılıq ənənələrinin parlaq davamçıları olan tanınmış pianoçular R.T.Quliyev, Y.M.Sabayev və N.Ə.İbrahimovanın ifaçılıq və pedaqoji fəaliyyətlərinin izlənilməsi.
- XX əsr Azərbaycan fortepiano incəsənətinin ən parlaq nümayəndələrindən biri S.Quliyevanın tam, bitkin portretinin işıqlandırılması.

**Dissertasiya işinin metod və metodoloji əsasları.** Təqdim olunan dissertasiya ümumi və xüsusi metodlar əsasında tarixi-nəzəri həllini tapmış və bu baxımdan elmi konsepsiya şəklində qarşıya qoyulmuşdur. Dissertasiyanın metodoloji əsası S.Quliyevanın yaradıcılığında individual üslub və xüsusiyyətlərin, üsul və yeniliklərin tədqiq olunmasına yönəlmişdir.

Tədqiqatda Azərbaycan fortepiano məktəbinin banilərindən: G.G.Şaroyev, M.R.Brenner, K.K.Səfərəliyeva, A.B.Qoldenveyzer məktəbinin təcrübəsinə metodoloji əsas kimi müraciət edilir, milli Azərbaycan fortepiano məktəbinin və ifaçılıq ənənələrinin formalaşması prosesində S.Quliyevanın özünəməxsus tərzdə məktəbinin metodologiyası izlənilir. Ü.Hacıbəylinin kadr siyasəti, milli kadrların yetişməsində rolu S.Quliyevanın və onun yetirmələrinin pedaqoji prinsipləri tədqiqat işinin metodoloji əsasını təşkil edir.

**Tədqiqatın obyekti.** S.Quliyevanın ifaçılıq, elmi-pedaqoji və ictimai fəaliyyətinin kompleks şəklində tədqiqi tədqiqatın obyektini təşkil edir.

**Dissertasiya işinin predmeti.** S.Quliyevanın yaradıcılıq fəaliyyətinin prinsip və metodları elmi-nəzəri əsaslarla araşdırılaraq tədqiqatın predmetinə çevrilmişdir.

**Dissertasiyanın təcrübi əhəmiyyəti.** S.Quliyevanın yaradıcılığının tədqiqi prosesində aşkarlanan ifaçılıq və pedaqoji prinsiplər müasir fortepiano ifaçılığı incəsənətində müxtəlif janrlarda yazılmış fortepiano əsərlərinin interpretasiyası zamanı pianoçuya bədii və texniki çətinliklərin öhdəsindən gəlmək üçün istiqamətləndirici mənbə ola bilər. Dissertasiyanın materialı ifaçılıq və pedaqoji təcrübədə, ali və orta ixtisas musiqi ocaqlarında metodik vəsait kimi istifadə oluna bilər. Tədqiqatın əsas müddəalarından Azərbaycan fortepiano ifaçılıq sənətinin gələcək tədqiqatında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "İxtisas fortepiano", "Musiqi tarixi", "Konsertmeyster ustalığı" kafedralarının iclaslarında, müxtəlif elmi-praktiki, elmi-ifaçılıq konfrans, seminarlarında müzakirə edilmiş, həmçinin tədqiqatın mövzusu əsasında ölkəmizdə və xaricdə dərc edilmiş elmi məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Təqdim olunan dissertasiya giriş, üç fəsil, səkkiz yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı, əlavələrdən, görkəmli musiqi xadimlərinin rəylərindən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı açıqlanır, işlənmə dərəcəsi, elmi yeniliyi, məqsəd və vəzifələri, metodologiya əsasları, obyekti, təcrübi əhəmiyyəti öz əksini tapır. **Birinci fəsil "Simuzər Quliyevanın Azərbaycan fortepiano ifaçılıq sənətinə gətirdiyi töhfələr" adlanar** və iki bölmədən ibarətdir. **1.1.** "**Simuzər Quliyevanın həyat və yaradıcılıq yolu**" adlı bölmədə fortepiano ifaçılıq sənətinin tarixinə nəzər salınır, XX əsrin 40-cı illərində fəaliyyətə başlayan pianoçular içərisində S.Ə.Quliyevanın yaradıcılığının təhlili aparılır.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük rol oynamış fortepiano aləti avropadan şərqə gəlmiş, XX-XXI əsrlərdə ümumbəşəri bir alət kimi qəbul olunmuşdur.

Azərbaycan fortepiano ifaçıları ilk dəfə bu alətdə artıq xalq mahnıları, diringilər, oyun havaları, muğam dəstgahlarını məharətlə ifa etmişlər (bəzilərinin not təhsili olmadığı halda). Bu cür improvizə xarakteri daşıyan ifalar arasında tədricən istedadlar üzə çıxırdı. Bunlar gənc pianoçu Kişvər Əliyeva, Xədicə Qayıbova və Nəzirə Şahmirzədir.

Beləliklə, XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan musiqi incəsənəti tarixində ən vacib mərhələlərdən biri sayılır. Belə ki, bir tərəfdən milli incəsənətimizdə (xalq musiqisi, professional musiqi ənənələri – muğam, aşıq yaradıcılığı) fəal inkişaf prosesi, digər tərəfdən isə rus və avropa incəsənətinin Azərbaycana daxil olması prosesi gedirdi. Bu tarixi mənzərədə və avropa yönüllü professional musiqi təhsili axınında Ü.Hacıbəylinin səyi nəticəsində tanınmış professional pianoçuların Azərbaycan Dövlət Konservatoriyasına dəvəti, bununla yanaşı gənc istedadların Moskvaya təhsil almağa göndərişi bir sıra musiqiçilərin pianoçu kimi yetişməsində mühüm rol oynadı.

Azərbaycanın fortepiano incəsənətinin inkişafının ilk mərhələsində (20-30-cu illər) dəvət olunmuş ixtisasçılardan N.D. Nikolayev, M.L. Presman, İ.S. Aysberqin milli kadrların yetişməsində böyük əməyi olmuşdur. Azərbaycanda professional fortepiano incəsənətinin yaranması və sonrakı inkişafı Peterburq konservatoriyasının məzunları olan G.G. Şaroyev və M.R.Brennerin, həmçinin V.M.Kozlovun (konsertmeyster sinfi), L.N.Yeqorova və R.İ. Siroviçin (fortepiano metodikası və pedoqoji təcrübə) misilsiz fəaliyyəti ilə bağlı idi.

L.V.Nikolayevin parlaq yetirmələrindən biri olan görkəmli pedaqoq M.R.Brenner bir neçə nəsil Azərbaycan pianoçularını yetişdirmişdir. Onların arasında N.İ.Usubova, R.İ.Atakişiyev, S.Ə.Quliyeva, E.Y.Səfərova, U.Ə.Xəlilov, S.M.İbrahimova, Z.Ə.Adıgözəlzadə, F.Ş.Bədəlbəyli, O.H.Abasquliyev, T.M.Seyidov və b. adlarını çəkmək olar.

Azərbaycanda 30-40-cı illərdə ilk milli professional nəsil yetişir. Onların arasında öz xalqının musiqi incəsənətinin və təhsilinin yüksəlməsi, inkişafı naminə çalışan ilk professional Azərbaycanlı qadın-pianoçuları sırasında olan, adı Azərbaycan fortepiano incəsənətinin yaranması tarixi ilə bağlı K.K. Səfər-Əliyeva olmuşdur. G.G.Şaroyev məktəbinin yetirməsi olan dahi Ü.Hacıbəyliylə çiyin-çiyinə çalışan K.K. Səfər-Əliyeva Az.Döv.Konservatoriyasının nəzdində fəaliyyət göstərən ilk onillik musiqi məktəbinin yaradıcısı və rəhbəri olmuşdur (1937-1952). K.K. Səfər-Əliyeva, L.M.Rudolf, N.S.Çumakov, E.M.Nikomarova gənc istedadların inkişafında böyük rol oynamışlar. İstedadlı uşaqlarla yanaşı respublikanın ən qabaqcıl musiqiçi müəllimləri məktəbə dəvət olunmuşdurlar: G.G.Şaroyev, M.R.Brenner, M.L.Bıkova, Ç.S.Qruşko, L.N.Yeqorova, R.İ. Sıroviç, A.S. Şvarts, S.L.Bretanitski və b. məktəbin şagirdlərinin Peterburq və Moskva ifaçılıq məktəbi ilə yaxından tanış olmağına kömək etmişlər. K.K.Səfər-Əliyeva və Ü.Hacıbəyli

S.Quliyevaya qulaq asdıqdan sonra onu Konservatoriyanın nəzdindəki 1933-34-cü illərdə yaradılmış onillik musiqi məktəbinin 4-cü sinfinə qəbul edirlər. Professor K.K.Səfər-Əliyevanın rəhbərliyi altında oxuyarkən gənc musiqiçinin çox qısa bir müddətdə F. Mendelsonun *g*-moll fortepiano konsertini tanınmış dirijor N. Anosovun rəhbərliyi ilə ifa etməsi balaca Simuzərin qeyri-adi istedadından xəbər verirdi.

40-cı illərin ortalarında istedadlı gənc pianoçulardan R.Atakişiyev, A.Zülfüqarova, S.Quliyeva və b. Tiflisdə keçirilən Zaqafqaziya Dekadasında və Moskvada keçirilən I Ümumittifaq müsabiqəsində müvəffəqiyyətlə çıxış etmişlər. 1942-ci ildə K.K.Səfər-Əliyevanın sinfini bitirən S.Quliyeva həmin ildə Az.Döv.Konservatoriyasına daxil olur, iki fakültədə M.R.Brennerin sinfində fortepiano, nəzəriyyədən isə N.S.Çumakovun sinfində təhsil alır. M.R.Brennerin sinfində təhsil aldığı dövrdə S.Quliyeva müxtəlif dövrlərin musiqi əsərlərindən ibarət çox geniş və sanballı repertuarı mənimsəməyə müvəffəq oldu. Bu əsərlərdən bir çoxu Filarmoniyanın səhnəsindən səsləndirilmişdir: F. Listin «Ölümün rəqsi» və «Dəfn mərasimi», 1 saylı fortepiano konserti; N.Metnerin c-moll fortepiano konserti; F. Əmirovun fortepiano və skripka üçün ikili konserti, S. Raxmaninovun fortepiano və orkestr üçün ilk iki konserti L.Qinzburq, Niyazi kimi dünya şöhrətli dirijorların rəhbərliyi altında ifa olunmuşdur.

1942-ci ildə A. Zeynallının ölümünün 10 illiyi ilə əlaqədar keçirilən xatirə gecəsində müvəffəqiyyətli çıxışına görə bəstəkarın adını daşıyan təqaüdə ilk dəfə məhz S.Quliyeva layiq görülmüşdür (M.R.Brennerin sinfi).

1944-cü ilin dekabrında Tiflis şəhərində keçirilən Zaqafqaziya respublikalarının musiqi dekadası cəmiyyət arasında böyük marağa səbəb oldu. Bu mühüm tədbirin hazırlığında və təşkilində Ü. Hacıbəyli şəxsən özü iştirak edirdi. Azərbaycan Dövlət Konservatoriyasının III kurs tələbəsi S.Quliyeva Dekadada Q. Qarayevin fortepiano üçün Sonatinasını ilk dəfə böyük uğurla ifa etmişdir. Bu münasibətlə Q.Qarayevin sözlərini xatırlatmaq yerinə düşərdi: «Hələ Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi ikən Simuzər Quliyeva Azərbaycan bəstəkarlarının bir sıra fortepiano əsərlərinin fəal təbliğatçısı və ilk ifaçısı kimi tanınmışdı. Bu əsərlərin ifası zamanı S. Quliyeva pianoçuluq mədəniyyətini Azərbaycan musiqisinin xarakteri və ruhu ilə qovuşdura bilmişdir». S.Quliyevanın dekadada çıxışı mətbuatda da xüsusi qeyd olunmuş, Gürcüstan qəzeti «Zarya Vostoka» onun parlaq ifasını işıqlandırmışdır. Sonrakı illərdə isə S. Quliyeva F. Əmirovun

prelüd və romantik sonatasının, T. Quliyevin fortepiano əsərlərinin ilk ifaçısı olmuşdur.

1945-ci ildə Moskvada pianoçuların I Ümumittifaq müsabiqəsi keçirilən zaman, S.Quliyeva Azərbaycan fortepiano məktəbinin təmsilçiləri sırasında idi. Məhz bu böyük sənət yarışı Simuzər Quliyeva üçün öz konsepsiyasına görə mürəkkəb və üslub cəhətdən bir-birindən çox uzaq olan əsərlərin təfsiri sahəsində sınaq meydanı oldu: İ.S.Bax – Xromatik fantaziya və fuqa; S.Prokofyev – 2 saylı Sonata; F.List – "Ölümün rəqsi".

1947-ci ildə Azərbaycan Dövlət Filarmoniyasında dahi Azərbaycan şairi Nizami Gəncəvinin 800 illiyi çox geniş şəkildə qeyd edilirdi. Bu münasibətlə, Ü.Hacıbəyov adına simfonik orkestrin müşayiəti ilə konservatoriya və filarmoniyanın zalında forma cəhətdən iri musiqi əsərləri səslənirdi. Bu konsertlərdə iştirak etmiş və sonradan Azərbaycan ifaçılıq incəsənətinin tanınmış nümayəndələrinə çevrilmiş pianoçulardan: S.Quliyeva, T.Mahmudova, Z.Əliyeva (3-ü də K. K. Səfər-Əliyevanın yetirmələri olmuş), R.Atakişiyev, E. Nəzirova, E.Əliyevanın adlarını çəkmək olar.

Rusiya məktəbinin təməlini qoymuş, görkəmli musiqiçi A.B. Qoldenveyzer 1947-ci ildə Konservatoriyanı bitirən gənc pianoçunun istedadını yüksək qiymətləndirərək, S.Quliyevanı Moskva Konservatoriyasının aspiranturasına, öz sinfinə qəbul edir. Onun rəhbərliyi altında S. Quliyeva öz ifaçılığını təkmilləşdirməyə nail olur. 1950-ci ildə aspiranturanı bitirən S. Quliyeva iki il sonra 1952-ci ildə «Sergey Raxmaninovun fortepiano və orkestr üçün Birinci – fis-moll konsertinin iki redaksiyasının müqayisəli təhlili» mövzusunda namizədlik dissertasiyasını müdafiə etdi. 1950-ci ilin sonunda pianoçu Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti Dekadasında iştirak etmiş, onun ifasında Azərbaycan bəstəkarlarının əsərləri böyük rəğbətlə qarşılanmışdır. 1950-60-cı illərdə S.Quliyevanın konservatoriyanın dosenti, L.B. Umanskaya ilə ansambl çıxışlarının repertuarı çox rəngarəng idi. G.Hendel- Konçerto-qrosso, V.Motsart-Sonata-D-dur, K.Sen-Sans- L.Bethovenin sonatasından (op. 31) menuetin mövzusuna variasiyalar, E.Qriq- Variasiyalar, H.Sen-Sans – «Heyvanların karnavalı», D.Şostakoviç – Konsertino və s. S. Quliyevanın R.Atakişiyevlə birgə fortepiano duetinin silsilə konsertləri də dinləyicilər tərəfindən hərarətlə qarşılanırdı. 1950-60-cı illərin bir çox musiqiçilərinin və musiqisevərlərinin hafizəsində S.Raxmaninovun iki süitasının, R.Şumanın Andante və variasiyalarının, D.Miyonun «Skaramuş» əsərinin və b. təfsiri hələ də yaşayır.

Konservatoriyanın aparıcı kafedralarından biri olan 2 saylı ixtisas fortepiano kafedrasına rəhbərlik etdiyi illərdə (1969-1996) S.Quliyeva özünü yüksək səviyyəli mütəxəssis, istedadlı musiqiçi və daim axtarışda olan sənətkar kimi tanıtmışdır. Q. Qarayev Simuzər xanım haqqında haqlı olaraq yazaraq söyləmişdir, "məhz ona ilk azərbaycanlı musiqiçilərinin sırasında olub, rus fortepiano məktəbinin ənənələrini Azərbaycan ifaçılığına və musiqi təhsilinə gətirmək nəsib olmuşdur".

Az.Döv.Konservatoriyasında pedaqoji fəaliyyətə başladığı illərdən S.Quliyeva yüksək göstəricilərlə fərqlənirdi. Onun tələbələrindən Respublikanın Xalq artisti, professor, bəstəkar və pianoçu V.Adıgözəlov, Dövlət Simfonik orkestrinin bədii rəhbəri və baş dirijoru, Azərbaycanın Xalq artisti R.Abdullayev, Azərbaycanın Əməkdar artisti, musiqi ifaçılarının I Zaqafqaziya Müsabiqəsinin birinci mükafatı laureatı, professor R.Quliyev, Azərbaycanın Əməkdar incəsənət xadimi, professor N.İbrahimova, Əməkdar müəllim, professor Y.Sabayev, pedaqoji elmlər doktoru, professor T.Kəngərlinskaya, III Zaqafqaziya müsabiqəsinin laureatı, professor Ə.Əliyeva və digərlərinin adlarını çəkmək olar.

Azərbaycan musiqi sənətinin inkişafı sahəsində görkəmli fəaliyyətinə görə Simuzər Ələkbər qızı Quliyeva 1972-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

**1.2. "Simuzər Quliyevaının pedaqoji prinsipləri və dərs metodikası"** bölməsində Simuzər Quliyevanın musiqili-pedaqoji fikirləri, ifaçılıq xüsusiyyətlərinin əsas cəhətləri açıqlanır, pianoçuluq incəsənətinin tədrisi məsələləri təhlil olunur. Dərs metodikasında S.Quliyeva K.K.Səfər-Əliyeva, M.R.Brenner və A.B.Qoldenveyzerdən öyrəndiyi pedaqoji prinsipləri davam etdirirdi. İfaçılıq incəsənətini yaradıcı proses kimi qəbul edən S. Quliyevanın məqsədi ən yüksək maksimal səviyyəli və keyfiyyətli ifaya nail olmaq idi. O, pianoçuluq sənətini tədris edərkən əsərin kompleks şəkildə ifaçılıq təhlilini verir: əsərin üslubu, dramaturgiyası, forması açıqlanır, onun obrazlı xarakter quruluşu, intonasiya xüsusiyyətləri, məqsədəuyğun texniki səsçıxarma üsulları, applikatura, dinamika, aqoqika və s. bu kimi keyfiyyətləri müəyyən olunurdu. S.Quliyevanın əsas məqsədi tələbəyə müəllif mətninə qarşı diqqətli, həssas münasibət, səbir və inadla lazımi ifaçılıq xüsusiyyətlərini, səs nüanslarını, tembr effektlərini əldə etmək və bəstəkarın fikrinin dərindən qavranılmasına, musiqi əsərinin konsepsiyasının bütövlükdə dolğun şəkildə açılmasına nail olmaq idi. Əsərin praktiki nümayişi və bədii izahatı bir metodun 2 tərkib hissəsi kimi bir-birinə bağlı olub, S.Quliyevanın pedaqoji prinsiplərinin

metodoloji əsaslarını təşkil edirdi. O, səs, ritm, pedallaşdırma və s. böyük diqqət yetirir, repertuar seçimində İ.S.Baxın, Vyana klassiklərinin, F.Şopen, R.Şuman, F.List, S.Raxmaninovun musiqisinə böyük yer verirdi.

Dissertasiyada S.Quliyevanın pedaqoji metodikasının bir çox cəhətləri müxtəlif dövrlərdə yaşamış bəstəkarların İ.S.Bax, F.Şopen, S.Raxmaninov, S.Prokofyev, Q.Qarayevin əsərlərinin ifaçılıq təhlili əsasında öyrənilmişdir. O, dərs prosesində tələbələrin nəzərini ifaçılıq redaksiyasına qarşı diqqətli olmağa yönəldirdi. S.Quliyevanın pedaqogikasından danışarkən açıq dərslərini xüsusi vurğulamaq lazımdır, belə ki, bu dərslər onun yaradıcılıq laboratoriyası ilə, pedaqoq-rejissor kimi fəaliyyətilə tanış olmağa imkan verir. Bu dərslərdə S.Quliyeva əsərin məhz janr və struktur xüsusiyyətlərini, üslubunu, bəstəkarın yaradıcılığındakı yerini və s. bu kimi məsələləri qabarıq göstərir. Onun əsas təsir metodlarından biri isə haqqında söhbət gedən əsərin fortepianoda canlı təqdimatından ibarət idi. Tədqiqat işində S.Quliyevanın dərs metodikası haqqında tələbələrinin məlumatı geniş şəkildə əks olunur.

Beləliklə, yüksək erudisiyalı və həssas bir müəllim olan S.Quliyevanın pedaqoji və ifaçılıq prinsipləri fortepiano incəsənəti sahəsində qarşıya çıxan bir çox çətinlikləri effektiv surətdə aradan qaldırılmasına zəmin yaradır.

**II fəsil "Simuzər Quliyevanın sinfində fortepiano əsərləri üzərində yaradıcılıq prosesi"** adlanır və üç bölmədən ibarətdir. **2.1. "S.Raxmaninovun fortepiano ilə simfonik orkestr üçün 1 saylı fis-moll konserti Simuzər Quliyevanın elmi-tədqiqat işinin obyekti kimi"** bölməsində pianoçunun elmi fəaliyyəti, musiqi elminə verdiyi tohfələr araşdırılmışdır. Burada pianoçuluq fəaliyyəti ilə yanaşı S.Quliyevanın uğurla elmlər namizədi elmi dərəcəsi almaq üçün tədqiqat işi və 1 saylı fis moll Konsertinin interpretasiyasının qısa analizi şərh edilir. Belə ki, S.Quliyeva S.Raxmaninovun 1 saylı Konsertini elmi obyekt kimi götürərək bu əsərin iki redaksiyasının müqayisəli təhlilini verir. Təhlil ilk növbədə bəstəkarın ustalığının inkişaf mərhələsinin izlənilməsinə, daha sonra S.Raxmaninov fortepiano üslubunun əsas xüsusiyyətlərini dəqiqliklə üzə çıxmasına kömək edir və ən nəhayət geniş yayılmış, sevimli əsər olan fis moll konsertinin xasiyyət, məzmun və üslubunun dərindən öyrənilməsinə imkan yaradır. 1 saylı konsertin iki redaksiyasının təhlili həm bəstəkar, həm də ifaçılar üçün maraqlı idi, çünki istənilən əsərin interpretasiyası onun məzmun və üslubunun dərindən öyrənilməsi üçün vacib amillərdəndir. S. Quliyevanın dissertasiya işinin mövzusu və məqsədi də bundan ibarət idi. Bəstəkarın ifaçılığının ən vacib xüsusiyyətlərinə toxunan S.Quliyeva onun melodiya

traktovkalarının, “polad” ritmikasının, emosional ifasının ümumi təmkinlə, ciddiliklə sıx bağlılığını nəzərə çatdırır. S.Raxmaninov ifaçılığının virtuozluluğu və onun interpretasiyasının ideya fikrinə tabeliliyi xarakterizə olunur. Konsertin iki redaksiyasının müqayisəli təhlili zamanı S.Quliyeva hər hissənin və onun daxilindəki mövzunun obrazlı fikrini, musiqi ifadə vasitələrini səciyyələndirməyə, bəstəkar tərəfindən 2-ci redaksiyaya gətirilən bütün dəyişiklikləri qeyd etməyə və bu dəyişikliklərin məqsədəuyğun olaraq yetkin S.Raxmaninovun üslub prinsipləri ilə bağlılığını araşdırmağa çalışır. S.Quliyevanın dissertasiya işində konsertin ayrı-ayrı hissələrinin ifa üsulları və applikaturası haqqında professor A.B.Qoldenveyzerin bir sıra göstərişləri öz əksini tapmışdır.

S.Raxmaninovun 1 saylı Konsertinin yenidən işlənməsini S.Quliyeva, yaradıcı insanın özünə tənqidi yanaşması ilə əlaqələndirir, hansı ki, bu cəhət rus musiqi məktəbinin bir çox qabaqcıl musiqiçilərinə xas idi. Elmi işində S.Quliyeva S.Raxmaninovun fortepiano konsertlərinin 3 əsas keyfiyyətlərini nəzərə çatdırır: 1) oxunaqlılıq, təbiilik; 2) melodiyaların geniş və dinamik inkişafı; 3) fortepiano ifadə vasitələrinin zənginliyi və müxtəlifliyi.

Sonda S.Quliyeva bəstəkarın erkən yaradıcılıq illərinin təmənnasız lirikliyini və onun yetkin fortepiano üslubuna xas bütün zəngin vasitələrini dəqiqliklə dərindən üzə çıxarılmasının vacibliyini qeyd edir. Beləliklə, S.Quliyevanın elmi fəaliyyəti onun pedaqoji və ifaçılıq fəaliyyətinə əsaslanaraq, bədii-estetik prinsiplərini özündə əks etdirmişdir.

**2.2. “S.Raxmaninovun fortepiano ilə simfonik orkestr üçün 2 saylı c-moll, 3 saylı d-moll konsertləri, Paqanini mövzusunda rapsodiya a-moll əsərlərinin nümunəsində S.Ə.Quliyevanın ifaçılıq konsepsiyası” -** S.Quliyevanın yaradıcılıq laboratoriyasının başlıca xüsusiyyətləri tədqiqat obyekti kimi araşdırılır. Bəstəkarın işıqlı, həyatsevər, şən olub, qəlbləri riqqətə gətirən lirika ilə zəngin 2 saylı konserti fortepiano musiqisinin ən yüksəkdə duran əsərlərindən biridir. S. Quliyeva S.Raxmaninovun konsertləri üzərində işləyərkən bəstəkarın melodika və harmoniyasının rus ənənəvi musiqisi ilə bağlılığını daim vurğulayırdı. S.Raxmaninovun 2 saylı c-moll konsertində olduğu kimi, d-moll konsertinin də çılğın həyat eşqilə diqqəti cəlb etdiyini qeyd edirdi. S. Quliyevanın fikrincə bəstəkarın c-moll konsertində lirik struktur geniş və dolğun idisə, d-moll konserti özünün enerjisi, daxilən özünü toplamaq keyfiyyəti, faciəyə qədər yüksələn dramatizmi ilə seçilirdi. 3 saylı konsertin simfonik inkişafının dinamik və zənginliyini nəzərə çatdıran

S.Quliyeva eyni zamanda burada pianoçunun məharətlilik rolunun güclü olduğunu qeyd edirdi. Dərs prosesində S. Quliyeva fortepiano koloritinin bütün zənginliyindən istifadə edərək d-moll konsertinin ümumi fikrinin və bədii obrazlarının inkişafına nail olurdu.

Görkəmli rus bəstəkarının sonuncu monumental fortepiano əsəri olan “Paqanini mövzusunda rapsodiya” onun ən yüksək nailiyyətlərindən biri olub forma və məzmun cəhətdən dinləyicinin qəlbinə yol tapan orijinal əsərdir. Fortepiano və simfonik orkestr üçün yazılmış bu iri həcmli əsər variasiya formasında olub mövzusu Paqanininin məşhur 24-cü a-moll “Kapris”indən götürülmüşdür.

S.Quliyevanın “Rapsodiya”nın variasiyaları üzərindəki iş prosesi tədqiqatda qabarıq şəkildə öz əksini tapır.

**2.3. “L.Bethovenin 2 saylı A-dur; 5 saylı c-moll; 7 saylı D-dur; 8 saylı c-moll; 11 saylı B-dur; 15 saylı D-dur fortepiano sonatalarının ifaçılıq təfsiri”** adlı bölmədə S.Quliyevanın metodikasına əsaslanaraq ifaçılıq traktovkası verilir, əsərlərin ifaçılıq xüsusiyyətləri açıqlanaraq vacib nəticələr əldə edilir. Simuzər Quliyevanın ifaçılığında və pedoqoji fəaliyyətində, L.Bethovenin sonataları mühüm yer tutur. Bildiyimiz kimi bəstəkarın sonatalarını ifa edən hər bir pianoçu əsasən bədii və mahir ifaçılıq cəhətdən çox çətin yerinə yetirilən tələblərlə qarşılaşır.

L.Bethovenin sonataları üzərində işləyərkən Simuzər Quliyeva istənilən canlı ifanın fərdi ifaçılıq keyfiyyətlərindən asılı olduğunu vurğulayır, mətnin dərindən və diqqətlə öyrənilməsini vacib amillərdən biri hesab edir, bütün ştrix və dinamik işarələrin tamamilə dəqiq ifasını tələb edirdi. Pedaqoji fəaliyyəti zamanı o, bir sıra üsul və prinsipləri əsas tutaraq əsərin texniki və bədii cəhətdən kamil səslənməsini tələbənin qarşısına qoyduğu əsas vəzifələrdən biri hesab edirdi. S.Quliyevanın fortepiano əsərləri üzərində interpretasiya və təfsir metodikasının tədqiqi onun yaradıcılıq xüsusiyyətlərini və pedaqoji üslubunu xarakterizə edir.

Əsərlərin təhlili S.Quliyevanın pianoçuluq ənənələrinin dərs metodikasının orijinallığını, effektliyini bir daha sübut edir. Onun pedaqoji metodikası görkəmli pedaqoqların ən yüksək xüsusiyyətlərini özündə cəmləşdirməklə bərabər milli ifaçılıq xüsusiyyətlərinin klassik ənənələr üzərində daha da inkişafına əsaslanırdı.

**III fəsil – “Azərbaycan fortepiano ifaçılığı sənətinin inkişafına Simuzər Quliyevanin yetirmələri tərəfindən gətirilən töhfələr”** adlanır və Azərbaycan pianoçuluq məktəbinin parlaq nümayəndələri R.T.Quliyev, Y.M.Sabayev, N.Ə.İbrahimovanın ifaçılıq və pedaqoji təcrübəsinin

tədqiqi məqsədini daşıyır.

**3.1- "Azərbaycan musiqi mədəniyyətində əməkdar artist, professor Rafiq Quliyevin solo pianoçu və pedaqoq kimi rolu"** bölməsində Azərbaycan ifaçılıq məktəbinin inkişafında parlaq iz qoymuş R.T.Quliyevin yaradıcılıq yolu araşdırılır. Erkən yaşlarından musiqiyə marağı olan R.Quliyev Az.Döv.Konservatoriyasının nəzdində fəaliyyət göstərən onillik musiqi məktəbinə daxil olur. Onun ilk müəllimi istedadlı musiqiçi, pedaqoq R.İ.Siroviç olmuş, daha sonra R.Quliyev tanınmış musiqiçi M.R.Brennerin sinfində təhsil alaraq, onun dərslərindən faydalanmışdır. Məktəbi bitirən pianoçu Ü.Hacıbəyli adına Az.Döv.Konservatoriyasına S.Quliyevanın sinfinə daxil olur. Konservatoriyada oxuduğu illərdə ən yaxşı tələbələrin sırasında olub, oranı əla qiymətlərlə başa vurur və təhsilini P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspiranturasında professor A.V.Şatskesin və Y.V.Fliyerin sinfində davam etdirir. A.V. Şatskesin sinfində R.Quliyev öz müəllimindən pianizmin rəngarəng çalarlarına, incə lirizmə yiyələnmişdirsə, onun vəfatından sonra, Y.V.Fliyerin sinfində dərs alarkən o, pianoçuya xas temperament, yüksək pafos və açıq qəlbə malik romantik cəhətlərin təsiri altında formalaşmışdır. Aspiranturanı bitirdikdən sonra Bakıya qayıdan pianoçu Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının 2 saylı "ixtisas fortepiano" kafedrasında müəllimlik fəaliyyətinə başlayır. Pianoçu 1960-cı ildə Bakıda keçirilən musiqi ifaçılarının I Zaqafqaziya müsabiqəsində müvəffəqiyyətlə çıxış edərək, birinci mükafat laureatı adını alır.

Moskonsertin solisti olan R.Quliyev vətəndə və onun hüdudlarından kənarda konsert proqramları ilə çıxış etmişdir. Q.Qarayev, C.Hacıyev, V. Adıgözəlov, M.Mirzəyev, T.Hacıyev, Ə.Əzizli kimi Azərbaycan bəstəkarlarının fortepiano əsərlərinin ilk ifaçılarından və interpretatorlarından olmuşdur. Pianoçu Almaniya və Misirin bir çox şəhərlərində çıxış edərək 50-dən çox konsert vermişdir. 1974-cü ildən 1976-cı ilədək Qahirədə musiqi professoru vəzifəsində işləmiş, 1996-cı ildə Yunanıstanın Korfu adasında İoniya Universitetində ustad-siniflər təşkil etmişdir. Ən sevimli və daha tez-tez ifa etdiyi əsərlər içərisində L.Bethovenin sonataları, R.Şumanın "Rəngbərəng səhifələr" əsəri, N.Metnerin sonataları, S.Raxmaninovun 1 və 4 saylı konsertləri, S.Frankın Prelüdiya, xoral və fuqası yer almışdır. S.Raxmaninovun 4 saylı konserti R.Quliyevin ifasında o qədər parlaq və yaddaqalan idi ki, onun interpretasiyasının qısa analizi tədqiqat işində öz əksini tapmışdır. S.Quliyeva məktəbinin davamçısı olan R.Quliyev fortepiano əsərlərinin təfsirində və interpretasiyasında öz müəllimi ilə çox

hallarda ortaq məxrəcə gəlirdi, lakin digər nəslin nümayəndəsi olduğuna görə, öz dünyagörüşünə və dövrünün tələblərinə uyğun yeni ifaçılıq üsulları, musiqi çalarları, psixoloji, ilhamverici lövhələri, parlaq obrazları yaradaraq barmaqları vasitəsilə ölməz əsərlərə yeni həyat vermişdir.

R.Quliyev pedaqoji fəaliyyətlə 1952-ci ildən məşğul olmuş və 65 il royalda ifa etmişdir. Onun 120-yə yaxın məzunu olmuşdur. Onun pedaqoji fəaliyyəti yüksək estetik parametrlərə əsaslanır. Dərs prosesində pianoçu dərin musiqi təhsilini, parlaq bədii təxəyyülünü, təfsirlə bağlı ideyaları real ifada nümayiş etdirirdi. Bu məqamda tələbə nəinki əsərin dərin bədii məzmunu ilə, həmçinin pianoçuluq baxımından ifa vasitələri ilə tanış olur və qarşısında yarana biləcək problemlərin həlli yollarını daha yaxşı anlayırdı. R.Quliyevin tələbələrindən: Bakı şəhəri K.K.Səfərəliyeva adına musiqi məktəbinin müdiri Rəna Aslanova (Şirəli-zadə); Əfrasiyab Bədəlbəyli adına musiqi məktəbinin müdiri Nəzifə Ağa Hüseyn qızı Quliyeva; Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin müəllimi Məryəm Vəkilova (Hüseynova); Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının müəllimi, 2010-cu ildə Yunanıstanda keçirilən "İnternational Music Prize" müsabiqəsinin laureatı, "2010-cu ilin ən yaxşı əsəri"- I yer, "2010-cu ilin ən yaxşı ifaçısı" – II yer Zərif Kərimova; Bakı Musiqi Akademiyasının dosenti, Azərbaycanın əməkdar müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Rimazi Nəzakət; Bakı Musiqi Akademiyasının 2 saylı ixtisas fortepiano kafedrasının baş müəllimi Natiqə Yaqubova; Baridə "Müqəddəs Nikolay" Beynəlxalq müsabiqəsinin laureatı Emin Zeynalov P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspiranturasında professor E.K.Virsaladzenin sinfini bitirmişdir; Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin əməkdar müəllimi Adilə Rəhimova və başqaları Rusiyada, ABŞ-da, İsraildə, Kanadada, Finlandiyada müvəffəqiyyətlə çalışaraq onun yolunu davam etdirirlər.

R.Quliyev 1989-cu ildə Azərbaycan Dövlət Konservatoriyasının professoru, daha sonra həmin ildə Azərbaycan fortepiano sənətinin inkişafında xidmətlərinə görə o, Azərbaycanın əməkdar artisti fəxri adına layiq görülür. Professor R.İ.Atakişiyevin vəfatından sonra R.Quliyev 1 saylı fortepiano kafedrasına rəhbərlik etmişdir (1994-1998).

Professorun elmi-tədqiqat işləri sahəsində də böyük uğurları vardır. Onun "Q. Qarayev musiqisində melodika", "F.Əmirovun mahnı və romansları", "T.Quliyevin xalq rəqslərinin fortepiano üçün işlənməsi", "F.Əlizadənin fortepiano üçün sonatasının metodik təhlili", "F.Qarayevin 2 ifaçı üçün sonatasının metodik təhlili", "Azərbaycan operalarından "Ko-

roğlu", "Nərgiz", "Vətən", "Sevil", "Aygün"-də müasir mövzunun təhlili", "S.Prokofyevin Sarkazmlarının metodik təhlili", "M.Quliyevin fortepiano üçün albom" (metodik tövsiyələr və təhlil), "M.Mirzəyevin Sonata-kapriçço" və "Ə.Əzizlinin fortepiano prelüdləri" mövzusunda metodik işləri ali musiqi məktəblərinin tədris-metodik proqramlarına gözəl bir töhfədir. R.Quliyev tədris prosesində daim diqqətçəkici ideyaları, parlaq fantaziyaları, maraq doğuran yeni yaradıcılıq tapıntıları ilə seçilirdi. R.Quliyev Azərbaycan müasir fortepiano məktəbinin inkişafında müstəsna xidmətləri ilə vacib rol oynamışdır.

**3.2-"Fortepiano sənətinin inkişafında Azərbaycan Respublikasının əməkdar müəllimi, professor Yuri Sabayevin pedaqoji fəaliyyəti"** bölməsində Azərbaycan pianoçuluq məktəbinin daha bir parlaq nümayəndəsinin yaradıcılıq yolu izlənilir, metodikası təhlil olunur.

Y.M.Sabayev Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki onillik Orta İxtisas musiqi Məktəbində 1961-1965-ci illərdə təhsil almışdır. Məktəbi əla qiymətlərlə bitirən pianoçu, 1965-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının fortepiano şöbəsinə, professor S.Quliyevanın sinfinə daxil olur. Konservatoriyada təhsil aldığı illərdə o, A.Skryabinin vals, prelüdiya, sonatalarını və konsertini müvəffəqiyyətlə ifa etmişdir.

1970-ci ildə Konservatoriyanı əla qiymətlərlə bitirən pianoçu oradaca konsertmeysterlıq fəaliyyətinə başlayır. 1971-ci ildən professor S.Quliyeva tələbələrinin arasından məhz Y.Sabayevi assistent vəzifəsinə layiq görür. Ona göstərilən bu yüksək etimadı pianoçu gərgin iş fəaliyyəti ilə doğrultmağa çalışır və öz üzərində yorulmadan işləyir. 1975-ci ildən öz sinfində müstəqil pedaqoji fəaliyyətə başlayan Y.Sabayev virtuoz ifa tərzi, yüksək musiqi zövqü ilə seçilirdi. 1976-cı il mayın 19-da Y.Sabayev P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının "Bəyaz zal"ında professor T.P. Nikolayevanın elmi-rəhbərliyi ilə solo konsert proqramı ilə çıxış etmişdir. Moskva Dövlət Konservatoriyasının professorları T.P. Nikolayeva, S.L.Dorenski, L.N. Vlasenko Yuri Sabayevin yüksək musiqi zövqünü, böyük ifaçılıq istedadını, özünə qarşı yüksək professional tələbkarlığını rəylərində xüsusilə vurğulamışlar.

Pianoçu Azərbaycan fortepiano sənətini 1979-1982-ci illər ərzində Yəmən Xalq Respublikasının Ədənə şəhərində yüksək səviyyədə təbliğ etmiş, bir sıra milli opera və operettalarımızı səhnələşdirmişdir. Y. Sabayevin yaradıcılığı yüksək qiymətləndirilmiş və o, Yəmən Xalq Respublikasının fəxri fərmanı ilə təltif olunmuşdur.

O, 2000-ci ildə Azərbaycan Respublikasının əməkdar müəllimi fəxri adına layiq görülmüşdür. Bakı Musiqi Akademiyasında çalışdığı müddətdə 70-dən artıq ixtisaslı musiqi kadrları hazırlamışdır. Onun sinfinin yetirmələri ölkəmizdə və ölkəmizin hüdudlarındakı musiqi ocaqlarında müvəffəqiyyətlə çalışır, Y.Sabayev məktəbi ənənələrini gələcək nəsillərə layiqincə ötürürlər. Onun istedadlı tələbələrindən – Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, beynəlxalq müsabiqələr laureatı Maya Nəsir qızı Sadıqzadə, beynəlxalq müsabiqələr laureatı, hal-hazırda M.Maqomayev adına Az.Döv. Filarmoniyasında xor kapellasının konsertmeysteri Səidə Tağızadə, Nazim Əliverdibəyov adına I Ümumşəhər müsabiqəsinin laureatı, Bakı Musiqi Akademiyasının müəllimi Elnarə Məcidova, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "konsertmeyster ustalığı" kafedrasının dosenti, sənətşünaslıq namizədi Könül Hüseynova, respublikamızda keçirilən ifaçılıq müsabiqələrinin laureatı, hal-hazırda Moskvada S.Prokofyev adına musiqi məktəbinin müəllimi Lena Trifonova, Ukraynada keçirilən müsabiqənin laureatı, Bakı şəhəri 21 saylı musiqi məktəbinin müəllimi Nigar Qarayeva və başqalarının adlarını çəkmək olar.

Y.Sabayevin pedaqoji fəaliyyəti rus fortepiano məktəbinin ənənələri ilə sıx bağlı idi. Dərs prosesində Y.Sabayev ilk növbədə əsərin bəstəkarı və məzmunu haqqında geniş məlumat verir, əsərin əsas məğzinin tapılmasına yardım edir, tələbədə bəddi yaradıcılıq meyllərini düzgün istiqamətləndirir, obraz üzərində yorulmadan çalışırdı. O, əsasən "səs"in keyfiyyətinə, rəngarəngliyinə, həmçinin artikulyasiyaya səslənmənin müxtəlif üsullarının mənimsənilməsinə, applikaturaya, tempin düzgün müəyyən edilməsinə düşünülmüş dinamikaya, ritmin inkişafına, pedalizasiyaya böyük diqqət yetirirdi.

Pianoçunun ifasında A.Skryabinin vals, konsert, sonataları, F.Şopenin əsərləri böyük ustalıqla ifa olunduğu üçün tədqiqat işində bu əsərlərin interpretasiyası verilir.

Professor Y.Sabayevin elmi-tədqiqat işləri sahəsində də böyük əməyi olmuşdur. Belə ki, onun "V.Adıgözəlovun fortepiano üçün 6 prelüdünün metodik təhlili" (1993), "G.Sviridovun fortepiano üçün f-moll Partitasının metodik təhlili" (1993), "Azərbaycan xalq melodiyalarının fortepiano üçün işləməsi və digər janrlı əsərlərin transkripsiyası"adlı metodik tövsiyələri (1992) "Ümumi pedalizasiya məsələləri" mövzusunda elmi-metodik məqaləsi, "F.Şopenin f-moll Balladası üzərində iş zamanı ümumi suallar və praktik tövsiyələr" mövzusunda elmi-metodik işləri gələcək

nəsil musiqiçilər üçün gözəl bir töhfədir.

**3.3- "Konsertmeyster ustalığının pedaqoji təcrübəsinə Əməkdar incəsənət xadimi, professor Nailə İbrahimovanın gətirdiyi töhfə"** bu bölmədə S.Ə.Quliyeva məktəbinin daha bir parlaq nümayəndəsi Nailə Əli qızı İbrahimovanın yaradıcılıq fəaliyyətinin əhəmiyyəti müəyyənləşdirilir.

S.Quliyeva sinfinin dərin biliyə malik, çox ciddi və yüksək mədəniyyətli tələbələrindən olan N. İbrahimova 1969-cu ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano fakültəsini bitirmişdir. Onun ifasında formaca iri əsərlərdən S.Frankın Prelüdiya, xoral və fuqası, S.Prokofyevin fortepiano və orkestr üçün 2 saylı konserti, L.Bethovenin sonataları və digər əsərlər müvəffəqiyyətlə səslənmişdir.

N.İbrahimova 1972-ci ildən başlayaraq Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasıda müəllimlik etmişdir. Fəaliyyət göstərdiyi müddətdə o, bir çox yüksək ixtisaslı musiqi kadrları hazırlamışdır, belə ki, onların arasında dünyanın bir çox ölkələrində qastrol səfərlərində olmuş beynəlxalq müsabiqə laureatları var. Hal-hazırda N. İbrahimova sinfinin məzunları opera teatrlarında, ali və orta ixtisas məktəblərinin vokal, orkestr və dirijor siniflərində konsertmeyster kimi fəaliyyət göstərirlər. Onların arasında M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru, Əməkdar artist, milli pianoçuluq məktəbini ölkəmizin hüdudlarından kənarda uğurla təmsil edən istedadlı pianoçu Murad Adıgözəlzadə, Bakı Musiqi Akademiyasının 2 saylı ixtisas-fortepiano kafedrasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Zülfiyyə Bayramova, "konsertmeyster ustalığı" kafedrasının dosenti, sənətşünaslıq namizədi Könül Hüseynova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, "konsertmeyster ustalığı" kafedrasının müəllimi Kamilla Sədirxanova və başqaları müəllimlərinin yolunu uğurla davam etdirirlər.

Pedaqoji fəaliyyəti illərində N.İbrahimova mütəmadi olaraq professional cəhətdən yüksək səviyyədə keçirilən açıq dərslər, sinif konsertləri təşkil edirdi. 1999-cu ildə keçirilən "İlin ən yaxşı konsertmeysteri" adına Respublika müsabiqəsində N.İbrahimova sinfinin tələbəsi Tamilla Quliyeva laureat adına layiq görülürmüşdür (I yer).

Gərgin elmi-pedaqoji fəaliyyəti ilə seçilən N.İbrahimova 1996-cı ildən Bakı Musiqi Akademiyasında, "Konsertmeyster ustalığı" kafedrasına rəhbərlik etmişdir (1996-2010). Bu müddətdə kafedrada peşəkar ixtisaslı kollektiv, Bakı Musiqi Akademiyasının ən yaxşı pianoçu-məzunlarından ibarət müəllim – konsertmeyster heyəti çalışmışdır.

Təhsil və mədəniyyətimizin inkişafında böyük əməyinə görə o, 2008-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Tədqiqat işində N.İbrahimovanın pedaqoji prinsipləri, konsertmeyster ustalığı təcrübəsinin əsas xüsusiyyətləri araşdırılır və bir sıra bəstəkarların vokal əsərlərinin təhlili nümunəsində öz əksini tapır. Həmçinin, gənc musiqiçidə notu üzündən oxumaq qabiliyyətini inkişaf etdirmək, vokal müşayiətlə yanaşı, instrumental müşayiətin öyrənilməsi (orkestr ifaçılığının spesifikası ilə tanışlıq) N.İbrahimovanın başlıca məqsədlərindən idi. O, tələbədə ifaçılıq təcrübəsini sistemli və ardıcıl formalaşdırır, əsas diqqəti fortepiano partiyasının ansambl qanunlarına yönəldir, digər tərəfdən müşayiətin solist üçün ritmik və harmonik təkan olaraq ifa olunan əsərin ümumi məzmununun açılmasına xidmət etdiyini qeyd edir. N.İbrahimova konsertmeyster ustalığı fənni üzrə bir sıra kitab, elmi-metodik vəsaitlərin müəllifi olaraq Azərbaycan musiqi sənətinə töhfələr vermişdir: "Konsertmeysterin opera səhnələri üzərində apardığı iş" adlı metodik tövsiyələri", "1920-1931-ci illərdə Azərbaycan musiqi incəsənətinin inkişafı" mövzusunda referatı, "1922-1925-ci illərdə Azərbaycanda simfonik musiqinin inkişafı" (elmi-tədqiqat işindən fraqmentlər); "20-ci illərdə Azərbaycanda musiqi incəsənətinin yeni təbliğ formaları"; "Azərbaycanda musiqi incəsənətinin yaranma və inkişafının ilk illəri"; "20-ci illərdə Azərbaycan musiqi həyatından səhifələr", "Qobustan" N4.1992; "1922-1925-ci illərdə Azərbaycanda musiqili teatrın inkişafı"; "XX əsrin əvvəllərində Azərbaycanda musiqili səhnə tamaşaları" mövzusunda metodik işi; 1998-ci ildə dosent N.İbrahimova baş müəllim L.Abasquliyeva ilə birgə tərtib etdiyi "konsertmeyster sinfinin bakalavr pilləsi üçün proqram"; 2007-ci ildə professor N.İbrahimova dosent L.Abasquliyeva ilə birlikdə tərtib etdiyi "konsertmeyster sinfinin magistratura pilləsi üçün proqram"; "Azərbaycanda konsertmeyster ustalığının tarixi, nəzəriyyəsi və təcrübəsi" adlı dərsliyi; "Pianoçu ifaçının konsertmeyster ustalığı haqda" elmi-metodik məqaləsi.

Dissertasiyanın **Nəticə** hissəsində aparılan tədqiqatın yekunu verilir. S.Quliyevanın yaradıcılıq yolunun tədqiqi onun metodikasını, ifaçılığını, elmi təcrübəsini özündə əks etdirən dəyərli bir material olaraq üzə çıxmasına səbəb olmuşdur. Beləliklə, S.Quliyeva və onun parlaq davamçılarının yaradıcılıq yolunun tədqiqi və təhlili Azərbaycan fortepiano incəsənətinin gələcək inkişafında böyük praktik əhəmiyyət daşıyır.

**Dissertasiyanın əsas elmi nəticələri aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**

1. Korifey sənətkar Fəridə Quliyeva //Musiqi Dünyası, Bakı, 2009, №3-4/41, s.110-112.

2. Fəridə Quliyevanın pedaqoji prinsipləri /İncəsənət və mədəniyyət problemləri, Bakı, №3 (29), 2009, s.130-134.

3. Nailə İbrahimova yaradıcılığında konsertmeyster ustalığının pedaqoji prinsipləri "Mədəni maarif" jurnalı, Bakı, 5 (243) 2011, s.65-68.

4. Yuri Sabayevin yaradıcılığının pedaqoji və ifaçılıq prinsipləri "Humanitar elmlərinin öyrənilməsinin aktual problemləri" məcmuəsi. Bakı: Mütərcim, 2 /2011, s.181-185.

5. Fəridə Quliyevanın pianoçuluq məktəbi /Doktarantların və gənc tədqiqatçıların XIV Respublika elmi konfransı. Tezislər, Bakı, 21 dekabr 2009.

6. Педагогические и исполнительские принципы в творчестве Рафика Кулиева, журнал «Поиск». Казахстан, №3/2011, с.178-182.

7. Fəridə Quliyevanın yaradıcılığında fortepianonun tədrisi /Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu. ADMİU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı, 2012, s.102-103.

8. Azərbaycan fortepiano məktəbinin inkişafında Yuri Sabayevin pedaqoji və ifaçılıq prinsipləri./Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş II Beynəlxalq konfransın materialları. Bakı-Gəncə, 4-7 may, 2011, s.227-232.

9. Rafiq Quliyev yaradıcılığının pedaqoji və ifaçılıq prinsipləri //Kültür evreni, İSSN: 1308-6197, Ankara, №5, 2010, s.353-358.

**Венера Джавад кызы Мамедова**

## Роль Симузар Кулиевой в развитии фортепианного искусства Азербайджана

### Резюме

Исследование состоит из введения, трех глав, восьми разделов, заключения, библиографии и приложений.

**I глава: «Вклад Симузар Кулиевой в Азербайджанское фортепианное исполнительское искусство»** - состоит из двух разделов. В **1.1. «Жизненный и творческий путь Симузар Куливой»** даются исторические сведения об этапах творческого становления фортепианного исполнительского искусства С.Кулиевой, а также анализируется её пианистическая деятельность в 40-х годов XX века. В **1.2. «Педагогические принципы и методика преподавания Симузар Кулиевой»** рассматривается музыкально-педагогические принципы С.Кулиевой, анализируется методические проблемы фортепианного искусства.

**II Глава: «Творческий процесс в работе над фортепианными произведениями в классе Симузар Кулиевой».** В **2.1. «Концерт № 1 fis moll для фортепиано и симфонического оркестра С.Рахманинова как объект научно-исследовательской работы Симузар Кулиевой»** впервые дается анализ её научного труда, внесший большой вклад в музыкальную науку. В **2.2. «Исполнительская концепция Симузар Кулиевой на примере произведения С.Рахманинова для фортепиано и симфонического оркестра: Концерт № 2 c-moll, № 3 d-moll, рапсодия на тему Паганини a-moll»** рассматриваются главные особенности творческой лаборатории Симузар Кулиевой. **2.3. «Исполнительская трактовка фортепианных сонат Л.Бетховена: № 2 A-dur, № 5 c-moll, № 7 D-dur, № 8 c-moll, № 11 B-dur, № 15 D-dur»** на основе методики Симузар Кулиевой дается фортепианная трактовка, раскрываются исполнительские особенности произведений.

**III Глава: «Роль последователей-учеников Симузар Кулиевой и их вклад в развитии Азербайджанского фортепианного исполнительского искусства»** состоит из трех разделов. В **3.1. «Роль заслуженного артиста, профессора Рафика Кулиева как солирующего пианиста и педагога Азербайджанской музыкаль-**

**ной культуры»** рассматривается творческий путь одного из ярких представителей азербайджанской исполнительской школы, внесший большой вклад в ее развитие. В **3.2.** Раскрывается **«Педагогическая деятельность Заслуженного педагога республики, профессора Юрий Сабаева в развитии фортепианного искусства Азербайджана»** **и в 3.3. «Вклад Заслуженного деятеля искусств, профессора Наили Ибрагимовой в педагогическую практику концертмейстерского мастерства»** определяется значение деятельности Н.Ибрагимовой – яркой представительницы школы С.Кулиевой.

В заключении излагаются основные выводы исследования.

**Venera Javad  Mamedova**

## The role of Sımuzar Kulıyeva ın pıanoforte art development ın Azerbaıjan

### Summary

The research consists from the introduction, three chapters, eight divisions, the final part, the citation and enclosures.

**The 1 first chapter;" The Contribution of Simuzer Kuliyeva into Azerbaijanian Pianoforte Performing Art. "-** consists from two divisions. **In 1.1. "Simuzar Kiuliyeva's Vital and Creative Course of Life. "**is given the historical information about the stages of Simuzar Kuliyeva's pianoforte performing art creative foundation, and also is analyzed her pianisitic activity in 40 ties years of the XX century. **In 1.2. "Simuzar Kuliyeva's Teaching Training Principals and the Methods of Teaching and Training. "** are examined S. Kuliyeva's musical teaching training principals, are analyzed pianoforte art methodical problems.

**II the Second Chapter; "The Creative Process in the Work over the Pianoforte Creations in the Class of Simuzar Kuliyeva** ". **In 2.1 " The Concert № 1 fis moll for Pianoforte and the Symphony Orchestra by S. Rahmaninov as the Object of Simuzar Kuliyeva's Scientific Research Work . "** for the first time is given the analysis of her scientific work , which made a major contribution into the musical science .**In 2.2. "Simuzar Kuliyeva's Performing Concept on the Example of S. Rahmaninov's Creations for the Pianoforte and the Symphony Orchestra ; The Concerto № 2 c – moll , № 3 d-moll , the Rhapsody on the Theme of Paganini a-moll**. "Simuzar Kuliyeva's creative laboratory main peculiarities are examined. **In 2.3. "The Performing Tractability of L. Beethoven's Pianoforte Sonatas: № 2 A-dur, № 5 c-moll, № 7 D-dur, № 8 c-moll , № 11 B-dur, № 15 D-dur."** on the basis of Simuzar Kuliyeva methods is represented the pianoforte tractation, are discovered performing peculiarities of the creations .

**The III Chapter; "The Role of Simuzar Kuliyeva's Pupils - Followings and their Contribution into Azerbaijanian Pianoforte Performing Art Development." c**onsists from 3 three divisions . In 3.1 " **The Role of the Honored Artist, the Professor Rafik Kuliyev as Azerbaijanian Musical Culture Soloist Pianist and the Teacher."**Is

examined the creative way of one of the bright representatives of Azerbaijanian performing art school, which made a major contribution into its development . In 3.2. is discovered "**The Honored Teacher of the Republic, the Professor Yuri Sabayev's Teaching Training Activity, for Pianoforte Art Development in Azerbaijan. " 3.3 "The Honoured Arts Worker, the Professor Naila Ibragimova's Contribution into Concertmaster \ Accompanist Art Mastery Teaching Training Practice. "**is defined the significance of N. Ibragimova's activity – the bright representative of S. Kuliyeva's School.

In the final there are recounted main conclusions of the research findings.

Чапа имзаланыб: 05.03.2013.
Формат: 60х84 1/16. Тираж: 100

**“Мцтяръим” Няшрийййат-Полиграфийа Мяркязи**
Бакы, Рясул Рза кцч., 125
Тел./факс 596 21 44
*е-маил: мутаржим@маил.ру*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
им. У.ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**ВЕНЕРА ДЖАВАД кызы МАМЕДОВА**

# РОЛЬ СИМУЗАР КУЛИЕВОЙ В РАЗВИТИИ ФОРТЕПИАННОГО ИСКУССТВА АЗЕРБАЙДЖАНА

6213.01 – Музыкальное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

БАКУ - 2013